46 (1352) 21-27 noyabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır




## "AZƏRBAYCANIN COP29-A EV SAHİBLİYİ ETMƏSİ BİZİM FƏAL ROLUMUZUN BEYNƏLXALQ ARENADA QİYMƏTLƏNDİRİLMƏSİ DEMƏKDİR"

"Demək olar ki, 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək fürsəti nəsib oldu. Bu, bizim ölkəyə hörmət əlamətidir və bizim fəal rolumuzun beynəlxalq arenada qiymətləndirilməsi deməkdir".

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 12-də Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında deyib.

O, bildirib ki, COP29-un sədri kimi Azərbaycan çalışacaq ki, inkişaf etmiş və inkişaf edən ölkələr arasında konsensusun tapılmasına töhfə versin və Qlobal Cənubla Qlobal Şimal arasında əlaqələr qurulsun.

120 ölkənin dəstəyi ilə Azərbaycan BMT-dən sonra ən böyük təsisat olan Qoşulmama Hərəkatına sədrlik edib.

## "AZƏRBAYCANIN BAŞLADIĞI MEQALAYİHƏLƏR AVRASİYADA ENERJİ VƏ DAŞIMALAR YOLLARINI DƏYİŞİB"

"Şimal, Cənub, Qərb və Şərq məhz Azərbaycanın qovuşduğu bir məkandır. Burada enerji, mədəniyyət, o cümlədən daşımalar müxtəlif beynəlxalq iştirakçılar arasında baş tutur".

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 12-də Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında deyib.

*"Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyada enerji və daşımalar yollarını dəyişib. Beləliklə, biz məhsuldar çoxtərəfli əməkdaşlıq formatı qurmuşuq"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

Dövlət başçısı bildirib: *"Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və öz tərəfdaşlarımızla birgə çalışırıq ki, digər mühüm enerji təhlükəsizliyi layihələrini həyata keçirək"*.

Bunlardan birinin Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsi olduğunu söyləyən dövlətimizin başçısı qeyd edib: *"Bunun sayəsində biz yaşıl enerjini Avropaya nəql edəcəyik. Bu kabelin texniki potensialı və yeri gəlmişkən, texniki əsaslandırma işləri bu yaxınlarda bitəcəkdir. Onun imkanları dörd giqavat olacaqdır. Bu, yalnız başlanğıcdır"*.

## "AZƏRBAYCAN COP29-A EV SAHİBLİYİ EDƏN ÖLKƏ SEÇİLDİKDƏN SONRA BİZ HƏDƏFƏ ÇEVRİLDİK"

"Azərbaycan COP29-a ev sahibliyi edən ölkə kimi seçildikdən sonra biz hədəfə çevrildik və bu, qarayaxma kampaniyası idi".

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 12-də Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında söyləyib.

Dövlətimizin başçısı deyib ki, özünü müstəqil QHT adlandıranlar və bəzi siyasətçilər ölkəmiz haqqında daha çox dezinformasiyanın yayılması üçün sanki bir-biri ilə yarışa girmişdilər.

O, deyib: *"Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin otuz ilə yaxın Ermənistan tərəfindən işğalına və bir milyona yaxın azərbaycanlının öz əzəli torpaqlarından didərgin düşməsinə baxmayaraq, biz güclü ölkə qura bildik, iqtisadiyyatı təmin etdik və müstəqil siyasət həyata keçirdik.*

*Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik və beləliklə, biz öz suverenliyimizi tam bərpa etdik. Bütün bunlar BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun oldu. Həmin qətnamələr otuz il kağız üzərində qaldı. Biz həmin qətnamələrin tələblərini öz gücümüzlə icra etdik, beynəlxalq hüququ və ədaləti bərpa etdik, Ermənistanın işğalına son qoyduq"*.

## PREZİDENT İLHAM ƏLİYEV COP29-UN AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCANA QARŞI İTTİHAMLARDAN DANIŞIB



Dövlətimizin başçısı qeyd edib: *"İki il əvvəl Azərbaycan və Avropa Komissiyası Strateji tərəfdaşlıq haqqında razılaşmaya imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının Prezidenti iki il əvvəl Bakıya gəlib bu sənədi bizimlə imzaladı. Çünki onlara bizim qazımız lazım idi"*.

O, deyib: Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərs vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bəzi siyasətçilər, dövlət nəzarətində olan QHT-lər və feyk-xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.

Mənim sonuncu mesajım o dairələrədir ki, onlar demək olar, artıq bir ildir boykotu təşviq edirlər. Onlar əllərində olan bütün vasitələrdən istifadə edirlər ki, Bakıdakı COP29-a qarşı boykot kampaniyası həyata keçirilsin. Onlara pis xəbərim var: bizim 196 ölkədən 72 min qeydiyyata alınmış iştirakçımız var. Onların arasında 80 Prezident, Vitse-prezident və Baş nazir var. Beləliklə, dünya Bakıda toplaşıb və biz dünyaya deyirik ki, **"Azərbaycana xoş gəlmisiniz!"**

## TÜRKİYƏ 2053-CÜ İLƏDƏK EMİSSİYALARI SIFRA ENDİRMƏYİ HƏDƏFLƏYİR



"Türkiyə iqlim dəyişikliyinin mənfi təsirinə ən çox məruz qalan dövlətlər sırasındadır. Ölkəmiz 2053-cü ilədək atmosferə zərərli emissiyaların sıfra endirilməsi və ekoloji cəhətdən təmiz inkişaf məqsədinə uyğun olaraq iqtisadiyyatın əsas sahələrinin yaşıl transformasiyası istiqamətində mühüm addımlar atır".

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 12-də Bakıda keçirilən COP29 Liderlər Sammitində çıxışı zamanı bildirib.

Türkiyə Prezidenti çıxışına BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) uğurla təşkil olunması münasibətilə Azərbaycan dövlətinin başçısını təbrik etməklə başlayıb. *"Səmimi qəbula və tədbirin uğurlu təşkilinə görə qardaşım Prezident İlham Əliyevə minnətdarlığımı bildirmək istərdim"*, - deyə Türkiyə dövlətinin başçısı vurğulayıb.

Siyasətçi Ankaranın Yaşıl Maliyyələşmə Strategiyasının həyata keçirilməsi və Milli Yaşıl Taksonomiyanın işlənib hazırlanması üzrə səylərinə diqqət çəkib. *"Biz tezliklə parlamentə emissiyaların ticarət sistemini də ehtiva edən yeni iqlim qanun layihəsini göndərəcəyik"*, - deyən Türkiyə lideri Bakıda keçiriləcək iqlim sammiti ərəfəsində Ankaranın Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Katibliyinə (BMT İDÇK) ikiillik "Şəffaflıq Hesabatı" və ölkənin uzunmüddətli iqlim strategiyasının mətnini təqdim etdiyini qeyd edib.

Prezident qeyd edib ki, Türkiyə 2024-2030-cu illər üçün İqlim dəyişmələrinin yumşaldılması və onlara uyğunlaşma üzrə Fəaliyyət Planını həyata keçirir. Bununla yanaşı, ölkənin enerji sektorunda bərpa olunan enerji mənbələrinin payı 59 faizə çatıb.

Bundan əlavə, Prezident Ərdoğan dünya ölkələrini Ankaranın 2026-cı ildə Türkiyədə COP31-ə ev sahibliyi etmək təklifini dəstəkləməyə çağırıb.

## İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏR BAKINI BOŞ ƏLLƏ TƏRK ETMƏMƏLİDİR

"COP29 iqlim maliyyəsi yolundakı divarları dağıtmalıdır. İnkişaf etməkdə olan ölkələr Bakını boş əllə tərk etməməlidirlər. Razılaşma zəruridir".

Bu sözləri BMT-nin Baş katibi Antonio Quterreş COP29-un açılış mərasimindəki çıxışı zamanı söyləyib.

*"Bizə müvafiq ana uyğun yeni maliyyə hədəfi lazımdır. İqlim maliyyələşdirməsi lazımdır, əks halda, başəriyyət bunun əvəzini ödəyəcək"*, - deyə Baş katib əlavə edib.



# Azərbaycan Prezidenti Fransanın dənizaşırı ərazilərdə törətdiyi cinayətlərdən danışıb

***"Yeni Kaledoniya və Fransa Polineziyası BMT-nin qərarı ilə özünü idarə edən ərazilər kimi bəyan ediliblər. Lakin orada bu problemlər (müstəmləkə qaydaları - red.) yenə də yaşanır".*** Bu sözləri Prezident İlham Əliyev COP29 çərçivəsində keçirilən İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammitində çıxışı zamanı söyləyib.

Fransa Polineziyası təbiətinin çox ağır deqradasiya ilə üzləşdiyini, Fransa tərəfindən orada çoxsaylı nüvə sınaqlarının aparıldığını vurğulayan dövlətimizin başçısı deyib ki, Fransa torpaqların çirkləndirilməsində, zərərin vurulmasında günahkardır. Əgər biz işğal zamanı Əlcəzairdə 17 nüvə sınağının aparılmasını nəzərə alsaq, anlaya bilərik ki, planetin ekosisteminə nə qədər böyük zərər vurulub.

Dənizaşırı ərazilərdə olan cinayətlərə toxunan Azərbaycan Prezidenti bu yaxınlarda Fransa tərəfindən insan hüquqlarının pozulması hallarının baş verdiyini, Yeni Kaledoniyada nümayişlər zamanı Makron rejimi tərəfindən çox sayda vətəndaşın qətlə yetirildiyini və yaralandığını bildirib.

# Pakistanın Baş naziri dünya birliyini COP29-un məqsədlərini yerinə yetirməyə çağırıb



COP29-un plenar iclasında çıxış edən Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Bakıda iqlim sammitinin uğurla keçirilməsi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib, onu "əziz qardaş" adlandırıb.

Hökumət başçısı çıxışında dünyanı yaxınlaşan iqlim dəyişikliyi təhlükəsinə diqqəti artırmağa və risklərin tam miqyasını dərk etməyə çağırıb. O deyib: ***"Biz bu COP-da üzərimizə götürdüyümüz maliyyə öhdəliklərini yerinə yetirməliyik".*** Pakistan hökumətinin başçısı əlavə edib ki, COP29 mütləq tarixə düşəcək.

# "COP29-a hazırlıqlar zamanı ölkəmiz əsassız ittihamlarla üzləşib"

"Cəmi 11 ay ərzində Azərbaycan COP29-a hazırlıqla bağlı böyük işlər görüb. Təəssüf ki, bu hazırlıqlar zamanı ölkəmiz bəzi dövlətlər və media platformaları tərəfindən qərəzli və əsassız ittihamlarla, ikili standartlarla, dezinformasiya kampaniyaları ilə üzləşib. Bu fəaliyyətlərdə az sayda milli parlamentlər və parlamentlərarası təşkilatlar da rol oynayıblar. Bəziləri ümumi çağırışlar qarşısında dialoqun gücünü unudurlar".




Bunu Milli Məclisin sədri Sahibə Qafarova COP29 çərçivəsində noyabrın 16-da Bakıda keçirilən Parlament Görüşündə çıxışı zamanı deyib.

O bildirib ki, bu xoşagəlməz hallara baxmayaraq, COP29 uğurla başlayıb və bütün maraqlı tərəflərin cəlbi ilə işini davam etdirir, qlobal iqlim fəaliyyətində hamını bir araya gətirir. Davam edən müzakirələr nəticəsində artıq mühüm qərarlar qəbul olunub. İqlim dəyişikliyi milli sərhədləri aşan və ümumi səylər tələb edən bəşəri problemdir. Bu prosesdə ümumi məqsəd uğrunda birliyimizi göstərməliyik.

***"İqlim böhranı getdikcə kəskinləşir. Kəskinləşdikcə isə onun mənfi təsirlərini aradan qaldırmaq çətinləşir. Bizim az vaxtımız var. Qanunvericiliyimizi daha da təkmilləşdirməliyik. Vətəndaş cəmiyyətləri ilə əməkdaşlıq onların narahatlığını anlamağa kömək edəcək",*** - deyə Sahibə Qafarova qeyd edib.

# "Azərbaycan qlobal neft bazarının tənzimlənməsində konstruktiv rol oynayır"



COP29 çərçivəsində energetika naziri Pərviz Şahbazovun Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qays ilə görüşü olub.

Bu barədə Energetika Nazirliyi məlumat yayıb.

Bildirilib ki, görüşdə Baş katib Haysam Əl-Qays Azərbaycanın COP29 Sədrliyinə dəstəyini ifadə edib və COP çərçivəsində keçirilən tədbirlərdə iştirakından bəhs edib. Həmçinin Baş katib bildirib ki, Azərbaycan qlobal neft bazarının tənzimlənməsində konstruktiv rol oynayır.

Görüşdə enerji bazarındakı qlobal trendlər, neft sənayesinin perspektivləri, "təmiz enerji"yə nail olmaq üçün emissiyaların azaldılması və yeni texnologiyaların tətbiqinə investisiyaların əhəmiyyətindən danışılıb.

"OPEC plus" formatında təmsil olunan ölkələrin həyata keçirdiyi bərpa olunan enerji layihələrindən və bu əməkdaşlıq əlaqələrinin "yaşıl enerji" tərəfdaşlığına töhfələri nəzərdən keçirilib. Bu xüsusda, BƏƏ və Səudiyyə Ərəbistanının Azərbaycanda və Mərkəzi Asiya ölkələrində bərpa olunan enerji layihələrində iştirakı qeyd olunub.

Söhbət zamanı enerji bazarının sabitliyinin təmin olunmasında qarşılıqlı əməkdaşlığın əhəmiyyəti vurğulanıb və bu cür dialoqların davam etdirilməsinin vacibliyi ifadə edilib. Qeyd edək ki, noyabrın 11-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasının açılışı olub.

# İnvestisiyalar və ticarət sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

COP29 çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov Pakistan İslam Respublikasının özəlləşdirmə, İnvestisiya Şurası və kommunikasiya üzrə federal naziri Abdul Alim Xan ilə görüşüb.

Bu barədə İqtisadiyyat Nazirliyi məlumat yayıb.

Dostluq və qardaşlığa əsaslanan Azərbaycan-Pakistan əlaqələrinin müxtəlif istiqamətlərdə uğurla inkişafından məmnunluq vurğulanıb.

İnvestisiyalar və ticarət sahəsində əməkdaşlığın genişləndirilməsi, həmçinin, hər iki ölkənin işgüzar dairələri arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib. Görüşdə Pakistanla energetika, sənaye, nəqliyyat, turizm və digər sahələrdə birgə layihələrin icrası üçün imkanların mövcud olduğu diqqətə çatdırılıb. Bildirilib ki, investisiya və ticarət tərəfdaşlığının dərinləşdirilməsi üçün bu potensialdan səmərəli istifadə etmək böyük əhəmiyyət daşıyır.

# "COP29-un inklüziv inkişafa aparan iddialı razılaşma yaradacağına ümidvaram"

"Ümid edirəm ki, Bakıda keçirilən COP29 həqiqətən inklüziv inkişafa gətirib çıxaran iddialı razılaşma yaradacaq".

Bu fikirlər Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransiskin Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) iştirakçılarına ünvanlandığı müraciətində yer alıb.

Pontifik müraciətində bildirib ki, iqlim dəyişikliyi ilə mübarizədə əlavə gecikmələrə yol verilmir və ətraf mühitin mühafizəsi sülhün qorunması ilə sıx bağlıdır: ***"Mövcud elmi məlumatlar daha çox gecikməyə imkan vermir və yaradılışın qorunub saxlanmasının zəmanəmizin ən aktual məsələlərindən biri olduğunu açıq şəkildə göstərir. Biz, həmçinin etiraf etməliyik ki, bu, sülhün qorunması ilə sıx bağlıdır".***

Roma papası qeyd edib ki, biz bir-biri ilə əlaqəli eyni qlobal kənddə yaşayan tək bir ailənin üzvləri kimi hərəkət etməli və yaşamalıyıq: ***"Gəlin tarixi və indiki vəzifələrin gələcək üçün konkret və uzaqgörən öhdəliklərə çevrilməsinə icazə verək ki, bu Sammitin ən aktual vəzifələrindən biri olan iqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyətli məqsəd ortaya çıxsın. Ümumi, lakin fərqləndirilmiş məsuliyyətlər və müvafiq imkanlar prinsipi COP29-un işini istiqamətləndirir və ruhlandırır".***

Qeyd edək ki, COP29-da Papa Fransiskin müraciətini Müqəddəs Taxt-Tacın Dövlət katibi kardinal Pietro Parolin oxuyub.

# Dünya liderləri Azərbaycanın COP29-a hazırlığını yüksək qiymətləndirirlər

Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yüksək səviyyədə keçirilməsi müxtəlif ölkələri təmsil edən qonaqlar, rəsmi şəxslər, media nümayəndələri və ekspertlərlə yanaşı, dünya liderləri tərəfindən də qiymətləndirilir, tədbirlərin səviyyəsindən məmnunluq ifadə olunur.

Yüksək səviyyəli rəsmi nümayəndələr COP29 çərçivəsində keçirilən plenar iclaslarda, eləcə də digər tədbir və görüşlərdə, müsahibələrdə Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətini, qonaqpərvərliyini və peşəkarlığını təqdir edir, COP29 danışıqlarının uğurla nəticələnəcəyinə ümidvarlıqlarını bildirirlər.

Dünya liderlərinin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində çıxış edən rəhbər şəxslər də COP29-un təşkilinə görə Azərbaycana minnətdarlıq ifadə edib, iqlim dəyişmələrinin böyük fəlakətlərə səbəb olduğu bu ölkələr üçün iqlim maliyyələşməsinin və uğurlu danışıqların əhəmiyyətini vurğulayıblar.

Xatırladaq ki, noyabrın 13-də COP29 çərçivəsində iqlim dəyişmələrindən ən çox əziyyət çəkən kiçik ada dövlətlərini dəstəkləmək məqsədilə "Kiçik ada dövlətlərinin səslərinin gücləndirilməsinə dair Bakı Bəyannaməsi" qəbul olunub. Bəyannamənin qəbul edilməsi COP29 Azərbaycan Sədrliyinin növbəti uğurudur.

# "Biz Bakıda uğur qazanmalıyıq"

BMT-nin Baş katibi Antonio Quterreş G20 liderlərinin Rio-de-Janeyroda keçirilən sammitində çıxışı zamanı COP29-un uğurla keçirilməsinin vacibliyini vurğulayıb.

O, çıxışında Bakıda keçirilən COP29-un müvəffəqiyyət qazanmasının qlobal iqlim tədbirlərində həlledici rol oynayacağını bildirib: ***"Biz Bakıda uğur qazanmalı, inam yaratmalı və gələn il yüksək ambisiyalı milli iqlim planlarının hazırlanmasını təşviq etməliyik. Uğursuzluq seçim deyil. Əks halda, yeni milli iqlim fəaliyyət planlarının hazırlanmasında ambisiyalar azalar və geri dönüşü olmayan iqlim dəyişikliklərinə daha da yaxınlaşarıq".***

A.Quterreş qeyd edib ki, COP29-un nəticələri COP30-un Braziliyada uğurla keçirilməsi üçün möhkəm zəmin yaratmalıdır. O, inkişaf etməkdə olan ölkələrin ehtiyaclarını qarşılamaq üçün güzəştli ictimai maliyyə vəsaitlərinin əhəmiyyətini xüsusi vurğulayıb.

Baş katib qlobal iqlim böhranının kritik həddə çatdığını deyib: ***"Əgər qlobal temperatur artımını 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmasaq, fəlakətli nəticələrlə üzləşəcəyik".***



O, bütün ölkələri iqlim dəyişikliyi ilə mübarizədə daha iddialı tədbirlər görməyə çağıraraq, G20 ölkələrinin qlobal emissiyaların 80 faizinə cavabdeh olduğunu xatırladıb: ***"Yeni milli iqlim planları konkret emissiya azaldılması hədəflərini ehtiva etməli, bütün sektorları və istixana qazlarını əhatə etməlidir".***

# "SOCAR Green" və "PowerChina" şirkətləri arasında Anlaşma Memorandumu imzalandı

COP29 çərçivəsində noyabrın 19-da "SOCAR Green" və "PowerChina" şirkətləri arasında Azərbaycanda bərpa olunan enerji layihələrinin inkişafında birgə imkanların araşdırılması məqsədilə Anlaşma Memorandumu imzalanıb.

Bu barədə SOCAR məlumat yayıb. Bildirilib ki, tərəflər arasında strateji tərəfdaşlıq Azərbaycanda bərpa olunan enerji mənbələrinin inkişafı hədəflərinə töhfə vermək məqsədi daşıyır.

Memorandum günəş və külək elektrik stansiyalarının inşası, inteqrasiya olunmuş ağıllı enerji sistemləri, yaşıl hidrogen istehsalı ilə bağlı layihələrin qiymətləndirilməsi və sərmayə qoyuluşunda birgə səyləri nəzərdə tutur.

Qeyd edək ki, noyabrın 11-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasının açılışı olub.

# "Ərzaq istehsalını 50 faiz artırmaq lazımdır"

Bunu FAO-nun Avropa və Mərkəzi Asiya üzrə regional nümayəndəsi Viorel Qutu "Su, enerji, qida və ekosistemlər üzrə regional əməkdaşlıq vasitəsilə iqlim fəaliyyətinin sürətləndirilməsi" adlı tədbirdə deyib.

***"Biz bu çağırışların mərkəzində ərzaq və kənd təsərrüfatı olmaqla, indidən 2050-ci ilə qədər qarşılaşa biləcəyimiz beş təcili və bir-biri ilə əlaqəli böhranla üzləşirik.***

***Birincisi, ərzaq təhlükəsizliyi böhranı var. Hazırda 730 milyona yaxın insan aclıqdan əziyyət çəkir. 2050-ci ilə qədər dünya əhalisinin, demək olar ki, 10 milyarda çatacağı gözlənilir və biz hələ də ikinci Dayanıqlı İnkişaf Məqsədinə (DİM) nail olmaqdan uzağıq. Hər kəsi qidalandırmaq üçün ərzaq istehsalını indiki səviyyədən 50 faiz artırmaq lazımdır",*** - o bildirib.

Onun sözlərinə görə, ikincisi, iqlim böhranıdır. Kənd təsərrüfatı sistemləri iqlim dəyişikliyinə çox həssasdır, lakin onlar qlobal istixana qazı emissiyalarının təxminən 30 faizinə cavabdehdirlər.

***"Üçüncüsü, su böhranı. Dünyada şirin suyun təxminən 70 faizi kənd təsərrüfatı ilə bağlı götürülür. Suvarma üçün su istehlakının 10 faiz artacağı, gələcəkdə isə bu göstəricinin 30 faizə qədər yüksələ biləcəyi gözlənilir ki, bu da əhəmiyyətli enerji xərcləri tələb edir.***

***Dördüncü böhran enerjidir. Kənd təsərrüfatı sistemləri istifadə olunan bütün enerjinin təxminən 30 faizini istehlak edir və qlobal enerji istehlakının 50 faizə qədər artacağı proqnozlaşdırılır. Və nəhayət, beşinci böhran təbiət böhranıdır. Kənd təsərrüfatı biomüxtəlifliyin itirilməsinin və torpaqların deqradasiyasının əhəmiyyətli faktorudur, baxmayaraq ki, onun davamlılığı sağlam ekosistemlərdən və münbit torpaqdan asılıdır",*** - o əlavə edib.

Qeyd edək ki, noyabrın 11-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) açılışı olub.

# Dəyərli alim, qayğıkeş müəllim, gözəl insan

***Noyabrın 22-də Azərbaycanın Əməkdar hüquqşünası, Bakı Dövlət Universitetinin (BDU) Hüquq fakültəsinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Məsumə Məlikovanın 95 yaşı tamam olur.***

Məsumə Fazil qızı Məlikova 22 noyabr 1929-cu ildə Bakı şəhərində anadan olub.

Doğulub böyüdüyü ailə ziyalı köklərə bağlı idi. Fazil kişi övladlarının hamısının mükəmməl biliyə yiyələnmələri üçün əlindən gələni əsirgəməmişdir. Məsumə ailənin üçüncü övladı idi. Və o, hüquq elmini seçmişdi.

1947-1952-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Hüquq fakültəsində təhsil alan Məsumə Məlikova Universiteti bitirdikdən sonra ADU-nun Hüquq fakültəsinin Dövlət hüququ kafedrasında müəllim, daha sonra baş müəllim, 1960-1968-ci illərdə isə dosent vəzifələrində çalışıb. Alim 1968-ci ildən ADU-nun Hüquq fakültəsinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasına rəhbərlik edib.

Görkəmli hüquqşünas, professor Məsumə Məlikova əmək fəaliyyətinə başladığı ilk gündən insanların haqlarını, hüquqlarını qorumağı amalına çevirib.

Hüquq elmləri doktoru alimlik dərəcəsini almış ilk azərbaycanlı qadın, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor, Əməkdar hüquqşünas...

Bütün bu adlar alimin uzun illər gərgin əməyinin bəhrəsi olmuşdur.

O, hələ təhsil aldığı illərdə prinsipiallığı, haqsızlıqla, ədalətsizliklə barışmazlığı öz həyat kredosuna çevirmişdi. Hüquqşünas peşəsini seçməsinin də səbəbi elə bu idi. Özünə və ətrafdakılara qarşı tələbkar olduğu qədər də mehriban, qayğıkeş, xalqını, millətini böyük məhəbbətlə sevən bir insandır Məsumə xanım.

***Hər dəfə Məsumə xanımla söhbət edəndə onun nə qədər yüksək səviyyəli, dəyərli alim, ziyalı, əsl Azərbaycan xanımı olduğunun şahidi olursan.***

M.Məlikova 1958-ci ildə "M.F.Axundovun ictimai-siyasi baxışları" mövzusunda namizədlik, 1973-cü ildə isə "XIX əsrin ikinci yarısı-XX əsrin başlanğıcında Azərbaycan maarifçilərinin siyasi və hüquqi baxışları" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib, 1974-cü ildə professor elmi adını alıb. O, 1989-cu ildə Azərbaycan MEA-nın müxbir üzvü seçilib.

Professor M.Məlikova Azərbaycanın siyasi və hüquqi təlimlər tarixinin öyrənilməsi məktəbinin banisidir. Alimin elmi fəaliyyəti hüquqşünaslığın iki mühüm sahəsinin - siyasi və hüquqi təlimlər tarixinin və dövlət və hüquq nəzəriyyəsinin aktual problemlərinin tədqiqinə həsr edilib. Bunlardan biri siyasi və hüquqi təlimlər tarixinin tədqiqidir. Digəri dövlət və hüquq nəzəriyyəsinin aktual problemlərinə həsr olunmuşdur. O, Azərbaycanda ilk dəfə olaraq milli siyasi və hüquqi fikir tarixinin öyrənilməsinin əsasını qoyub, hüqüqşünaslıqda yeni bir istiqamət yaradıb.

Məsumə xanımın ölkəmizdə yüksəkixtisaslı kadr potensialının formalaşmasında, hüquq elminin dərinliklərinə bələd olan yeni mütəxəssislərin yetişdirilməsində əvəzsiz xidmətləri vardır. Alimin yetişdirdiyi peşəkar kadrlar hüquq elminin inkişafına, həm də müstəqil Azərbayanda hüquqi dövlət quruculuğu prosesinə öz töhfələrini verməkdədirlər. Professorun elmi rəhbərliyi ilə 35-dən artıq namizədlik, o cümlədən 4 doktorluq dissertasiyası müdafiə edilib.

Məsumə xanım dövlətin hüquqi əsaslarının formalaşmasında vacib sayılan qanunvericilik bazasının hazırlanmasında iştirak edib.

M.Məlikova Azərbaycanın suverenliyi haqqında 23 sentyabr 1989-cu il Konstitusiya qanununu tərtib edənlərdən biri, wmummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi 1978-ci il Azərbaycan SSR Konstitusiyasının və 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması üzrə komissiyanın üzvü olmuşdur.



***Məsumə xanım Məlikova bir sıra tədris proqramlarının müəllifidir. 1979-cu ildə "Azərbaycanın siyasi nəzəriyyələr tarixi"ni, 1985-ci ildə "Siyasi və hüquqi nəzəriyyələr tarixi"ni , 1994-cü ildə "Müsəlman hüququnun əsasları"nı, 1996-cı ildə "Ümumi dövlət və hüquq tarixi"ni, 1998-ci ildə "Dövlət və hüquq nəzəriyyəsi"ni, "Azərbaycanın dövlət və hüquq tarixi"ni və digər tədris proqramlarını nəşr etdirib.***

Alim Azərbaycanda və onun hüdudlarından kənarda çap olunmuş 200-dən çox monoqrafiya, dərslik, dərs vəsaiti, çoxsaylı elmi məqalələrin müəllifidir. Onun 2019-cu ildə çap etdirdiyi "Hüquq nəzəriyyəsi" kitabı hazırda hüquqşünasların stolüstü kitabıdır.

Görkəmli hüquqşünas Azərbaycan Respublikası Ali Məhkəməsinin və Baş Prokurorluğunun elmi-məsləhət şuralarının üzvü kimi də fəaliyyət göstərir.

***Professor Məsumə Məlikovanın xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 1969-cu ildə Azərbaycan SSR-in Əməkdar hüquqşünası fəxri adına, 1976-cı ildə "Şərəf nişanı" ordeninə, 1985-ci ildə "Əmək veteranı" medalına, 2000-ci ildə "Şöhrət" ordeninə layiq görülüb. Prezident İlham Əliyevin 30 oktyabr 2009-cu il tarixli sərəncamına əsasən Azərbaycanda təhsilin və elmin inkişafında xidmətlərinə görə ona Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib.***

Görkəmli alim Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi döş nişanı", Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Daxili İşlər Nazirliyinin və AMEA-nın Fəxri fərmanları ilə təltif edilib.

Məsumə xanımın elm sahəsində qazandığı uğurlar xalqımızın elmi potensialının daha da gücləndirilməsinə xidmət göstərir. Bu gün 95 illik şərəfli bir ömürlə çoxlarına örnəkdir Məsumə xanım.

Saf əqidəli, prinsipiallığı, dürüstlüyü ilə seçilən, əsl ziyalı Məsumə xanım Məlikovanı 95 illik yubileyi münasibətilə təbrik edir, ona can sağlığı və fəaliyyətində uğurlar arzu edirəm!

**Akademik Ziyad SƏMƏDZADƏ**

## Zakir İbrahimov 3-cü "Yüksəliş" müsabiqəsinin qalibi ilə növbəti görüşünü keçirib



"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov 3-cü "Yüksəliş" müsabiqəsinin Mentorluq proqramı çərçivəsində layihə qaliblərindən biri olan Vüqar Mamedov ilə növbəti görüşünü keçirib. Görüşdə Zakir İbrahimov müsabiqə qalibi ilə kadrların və vaxtın idarə edilməsi, iş və həyat balansı, emosional zəka, fors-major hallarda effektiv qərar qəbuletmə ilə çevikliyin təmin olunması mövzuları ətrafında müzakirələr aparıb. Həmçinin İdarə Heyətinin sədri məhdud maliyyə və insan resurslarından istifadənin effektiv planlaşdırması və prioritetləşdirməsi istiqamətində təcrübəsini bölüşüb, müsabiqə qalibinə müvafiq tapşırıq və tövsiyələrini verib.

Qeyd edək ki, müsabiqə qalibinin 1 illik fərdi inkişaf planına uyğun olaraq idarəetmə sahəsində nəzəri biliklərlə yanaşı, real iş mühitində təcrübə toplayaraq müvafiq sahədə bacarıqlarını artırması üçün işgüzar görüşlərə cəlb edilməsi nəzərdə tutulub.

## "AzerGold" QSC "Daşkəsən rayonunda bitən nadir bitkilərin reintroduksiyası" layihəsini uğurla icra edib

"AzerGold" QSC tərəfindən "Daşkəsən rayonunda bitən nadir bitkilərin reintroduksiyası" layihəsi çərçivəsində Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş nadir, nəsli kəsilmək təhlükəsində olan bitki növlərinin "Çovdar" qızıl mədəni ətrafında çoxaldılması və reintroduksiyası uğurla icra edilib.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil edilən növbəti aksiya zamanı Zəngəzur itburnusu (Rosa zangezura P.Jarosch.), Nizami itburnusu (Rosa nisami Sosn.), Qafqaz dağdağanı (Celtis caucasica Willd.), Adi nar (Punica granatum L.), İriyarpaq kövrək mürdəşər (Frangula grandiflora A.Pool), Trautvetter ağcaqayını (Acer trautvetteri L.), Adi şabalıd (Castanea sativa Mill.), Dəmirağac (Parrotia persica (DC.) C.A.Mey.), Şabalıdyarpaq palıd (Quercus castaneifolia C.A.Mey.) və Atşabalıdı (Aesculus hippocastanum L.) kimi nadir ağac və bitki növlərinin kütləvi əkini həyata keçirilib.



Qeyd edək ki, "AzerGold" QSC tərəfindən "Daşkəsən rayonunda bitən nadir bitkilərin reintroduksiyası" layihəsi çərçivəsində 2021-2024-cü illərdə Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun əməkdaşlarının bilavasitə iştirakı ilə "Çovdar" mədəninin ətrafındakı dağlardan nəsli kəsilmək təhlükəsində olan ağac və bitkilər aşkarlanaraq, toxumları yığılıb. Həmin toxumların çeşidlənməsi, müvafiq dərman vasitələri ilə qurudulması həyata keçirilərək, xüsusi aqrotexniki qaydada təcrübə sahəsində yetişdirilib.

Cari aksiya daxil olmaqla, ümumilikdə 3 dəfə, hər ilin oktyabr-noyabr aylarında nadir, nəsli kəsilmək təhlükəsində olan ağac tingi və bitki kollarının tarixən yetişdiyi ərazilərdən biri kimi Daşkəsən rayonunda, "Çovdar" mədəninin ətrafında ayrılmış geniş ərazidə əkini, çoxaldılması təmin edilib. Builki aksiya zamanı, həmçinin təbii şəkildə digər bölgələrdə yayılmış nadir ağac və bitki növlərinin "Çovdar" qızıl mədəni ətrafında kütləvi əkini həyata keçirilib. Sözügedən bitkilər mütəmadi qulluq göstərilməsi üçün "AzerGold" QSC-nin Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində ekoloqlar tərəfindən daimi nəzarətə götürülüb.

Xatırladaq ki, Azərbaycan Respublikasının "Qırmızı kitabı"nın 2023-cü ildə nəşr edilmiş 3-cü nəşrində "AzerGold" QSC-nin icra etdiyi bu ekoloji əhəmiyyətli layihə öz əksini tapıb.

Ölkəmizin dağ-mədən sənayesini təmsil edən dövlət şirkəti olaraq "AzerGold" QSC tərəfindən istismarı həyata keçirilən yataqların ekoloji cəhətdən daha effektiv idarə edilməsi, hasilat prosesi zamanı ətraf mühitə təsirlərin minimuma endirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirir. Bununla yanaşı, QSC-nin Sosial təsir və məsuliyyət üzrə siyasəti çərçivəsində ekoloji tarazlığın qorunub saxlanılması məqsədilə davamlı olaraq kütləvi tədbirlər, o cümlədən, iməcilik, ağacəkmə və digər yaşıllaşdırma aksiyaları təşkil edilir.

## Çinin telekommunikasiya texnologiyaları şirkətinin nümayəndələri ÇİRES-ə səfər edib

Çin Xalq Respublikasının "FiberHome International Technologies Co. Ltd." şirkətinin vitse-prezidenti Jun Zhounun rəhbərlik etdiyi nümayəndə heyəti "AzerGold" QSC-nin Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinə (ÇİRES) səfər edib.

Azərbaycan İnvestisiya Holdinqi (AİH) ilə "FiberHome Telecommunication Technologies Co., Ltd." şirkəti arasında əməkdaşlıq üzrə imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq Holdinqin idarəetməsinə verilən şirkətlərdə rəqəmsal həllər və müasir texnologiyaların tətbiqi istiqamətində əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi, istehsalatda mövcud texniki imkanların qiymətləndirilməsi məqsədilə təşkil edilən səfərdə qonaqlar "Çovdar" qızıl mədəni, ÇİRES-də infrastruktur obyektləri, o cümlədən yeni istifadəyə verilmiş Çəndə Qələviləşdirmə Zavodu ilə tanış olub, istehsal prosesinin bütün mərhələlərini izləmək imkanı əldə ediblər.

Qonaqlara "AzerGold" QSC-nin mütərəqqi beynəlxalq təcrübə və standartlar əsasında həyata keçirdiyi hasilat və istehsalat fəaliyyəti zamanı ətraf mühitin mühafizəsi, işçilərin sağlamlığı və təhlükəsiz əmək şəraitinin təmin olunması sahəsində gördüyü işlər barədə məlumat verilib. Həmçinin müasir texnologiyaların tətbiqi istiqamətində həyata keçirilmiş tədbirlərdən danışılıb. Məlumat verilib ki, ÇİRES-də yeni istifadəyə verilən Çəndə Qələviləşdirmə Zavodu ən müasir texnologiyalarla təmin edilib, müəssisədə işçilərin sağlamlığı və əməyin təhlükəsizliyi üçün müasir idarəetmə sistemi qurulub.

Mədən və istehsalat sahəsi ilə tanışlıqdan sonra tərəflər arasında təşkil edilən görüşdə istehsalat sahəsində 5G şəbəkənin formalaşdırılması, avadanlıq, qurğu və sistemlərə IoT – "internet of things" (əşyaların interneti) həllərinin quraşdırılması, SƏTƏM üzrə Smart nəzarət və icra sistemlərinin təkmilləşdirilməsi, əməliyyat-nəzarət bloku və qeydiyyat cihazlarının inteqrasiyası imkanları müzakirə olunub, müəssisədə texniki qulluq üçün mövcud planlama, öncədən xəbərdarlıq sistemləri dəyərləndirilib. Görüşün yekunu olaraq Çin şirkəti tərəfindən Səhmdar Cəmiyyətinin texniki tələbləri və texnoloji ehtiyaclarına uyğun təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsinə, daha sonra konkret əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsinə qərar verilib.



Xatırladaq ki, 1999-cu ildən fəaliyyət göstərən "FiberHome Telecommunication Technologies Co., Ltd." şirkəti Çinin nəhəng telekommunikasiya texnologiyaları şirkətlərindən, habelə dünyanın ən böyük fiber-optik kabel istehsalçılarından biridir. Şirkət optik ötürmə sistemləri, IP şəbəkələri, məlumat mərkəzləri və müasir şəbəkə infrastrukturu həlləri kimi sahələrin daxil olduğu geniş məhsul portfelinə sahibdir və dünyanın 90-dan çox ölkəsində məhsul və xidmətlərin satışını həyata keçirir.

## "Neftin qiyməti azalarsa, mənfi təsirləri qarşılaya bilmək üçün ehtiyat addımlarımız var"

"Şübhəsiz ki, istənilən proqnoz müəyyən risklərə məruz qala bilər. Ona görə Maliyyə Nazirliyi dövlət büdcəsinin layihəsini hazırlayarkən İqtisadiyyat Nazirliyi tərəfindən tərtib olunan makroiqtisadi proqnozları əsas götürüb".



Bu sözləri Gənclər və idman, ictimai birliklər və dini qurumlar, mədəniyyət komitələrinin keçirilən birgə iclasında maliyyə naziri Samir Şərifov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

Nazir bildirib ki, cari ilin büdcəsində neftin qiyməti 60 dollardan 75 dollara kimi yüksəldilib: "Növbəti il biz bu qiyməti 5 dollar az götürmüşük. Əgər neftin qiyməti azalarsa, mənfi təsirləri qarşılaya bilmək üçün ehtiyat addımlarımız var".

# Qlobal aqro-sistemlərə 2030-cu ilə qədər hər il 1,1 trilyon dollar lazım olacaq

“2024-cü ildən 2030-cu ilə qədər qlobal aqro-ərzaq sistemləri hər il orta hesabla 1,1 trilyon ABŞ dolları tələb edəcək”.
Bunu FAO-nun təbii resurslar üzrə baş məsləhətçisi Martial Bernu COP29 çərçivəsində keçirilən "Aqrar-ərzaq sisteminin transformasiyasının maliyyələşdirilməsi" mövzusunda panel müzakirəsində bildirib.
*”İqlim üzrə investisiyaların əhəmiyyətli hissəsi siyasət, milli büdcələrin dəstəklənməsi, potensialın inkişafı və kənd təsərrüfatı alt-sektorlarına yönəldilməlidir. Siyasətlərin, milli büdcələrin və potensialın inkişafına 467,5 milyard dollar, kənd təsərrüfatına 317 milyard dollar, biomüxtəliflik, quruda və dənizdə ekosistemlərə 100 milyard dollar, meşə təsərrüfatına 117 milyard dollar, ərzaq sektoruna isə 53 milyard dollar tələb olunacaq”*, - deyə M.Bernu qeyd edib.

# İqlimlə bağlı xərclər artıq növbəti ilin büdcəsində əksini tapıb

Bunu Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya, Əmək və sosial siyasət, Səhiyyə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə keçirilən iclasında maliyyə naziri Samir Şərifov deyib.
O qeyd edib ki, ölkəmizin paytaxtında dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29 keçirilir, iqlim məsələləri, onun bizim gündəlik həyatımıza təsirləri müzakirə edilir.
*“Dünya miqyasında Azərbaycan bu məsələlərdə öz baxışlarını nümayiş etdirməkdədir. Biz büdcədə bununla bağlı işlərə başlamışıq. İqlimlə bağlı xərclər artıq növbəti ilin büdcəsində əksini tapıb”*, - deyə o əlavə edib.

# Azərbaycanda elektrik enerjisi, qaz və buxar istehsalından gəlirlər 2,5 mlrd. manatı ötüb

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2 516,3 mln. manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib.
Trend Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, bu, 2023-cü ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 0,4%-lik azalma deməkdir.
Məlumata görə, hesabat dövründə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 519,3 mln. manat təşkil edib. Bu isə illik müqayisədə 8% artım deməkdir.

# 2025-ci ilin dövlət büdcəsində təbii qazın ixrac qiyməti məlum olub

“2025-ci ilin dövlət büdcəsində təbii qazın 1 min kubmetr ixrac qiyməti 242 ABŞ dolları, manatın məzənnəsi isə 1 dollar üçün 1,7 manat səviyyəsində qəbul edilib”.
Trend xəbər verir ki, bunu Milli Məclisin 4 komitəsinin birgə iclasında 2025-ci ilin büdcəsinin müzakirəsi zamanı maliyyə naziri Samir Şərifov deyib.
O bildirib ki, 2025-ci ilin dövlət və icmal büdcələrinin tərtibi zamanı İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş baza proqnozu əsas götürülərək, ölkədə ÜDM-in artım tempi 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in artım tempi 4,9 faiz,



orta illik inflyasiya 4,6 faiz, xam neftin 1 barrelinin qiyməti 70 ABŞ dolları götürülüb.
Qeyd edək ki, 2025-ci ilin dövlət büdcəsinin xərcləri 41367,6 milyon manat nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə 1625,3 milyon manat və ya 4,1 faiz çoxdur. Büdcə xərclərinin strukturunda cari xərclər 60,1 faiz və ya 24845,2 milyon manat, əsaslı xərclər 34,1 faiz və ya 14122,8 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclər 5,8 faiz və ya 2399,6 milyon manat təşkil edəcək.

# Palata büdcəyə rəyində 2025-ci ildə minimum pensiyanın 280 manat olacağı ilə bağlı məsələyə aydınlıq gətirib

Hesablama Palatası gələn il üçün büdcəyə rəyində minimum pensiya məbləğinin 280 manat olacağı ilə bağlı məsələyə aydınlıq gətirib.
Hesablama Palatasından Trend-ə bildirilib ki, Azərbaycan Respublikasında 2025-ci ildə minimum pensiya məbləği barədə Hesablama Palatası tərəfindən rəyin hazırlanması prosesində aparılan qiymətləndirmələr və təhlillər zamanı “Büdcə zərfi”nin, dövlət orqanlarının həsabat və statistik məlumatlarına, nüfuzlu beynəlxalq təşkilatların tədqiqatlarına istinad olunur.
Qeyd edilib ki, “Büdcə zərfi”ndə 2025-ci il üçün minimum pensiya məbləği ilə bağlı məlumata rast gəlinmədiyi üçün Strategiyada müəyyən edilmiş hədəfə uyğunluq cari ilin minimum pensiya məbləği əsasında hesablanıb: “Beləliklə, cari ilin minimum pensiya məbləğinin (280 manat) 2025-ci il üçün minimum əməkhaqqı məbləğinə (400 manat) nisbətinin 70 faiz olacağı nəzərdə tutulur.
Bununla bərabər bildiririk ki, ölkəmizdə minimum əməkhaqqının müəyyən edilməsi və minimum pensiya məbləğinin müvafiq məbləğə çatdırılması Azərbaycan Respublikasının Prezidentinin müvafiq hüquqi aktları ilə həyata keçirilir. Eyni zamanda bəzi media subyektlərində də yayılan “rəydə Azərbaycan Respublikasının 2022-2026-cı illərdə Sosial İnkişaf Strategiyasına istinad nə dərəcədə doğrudur?” sualı ilə bağlı bildiririk ki, Rəyin əsas predmetlərindən biri də büdcə proqnozlarının ölkəmizin əsas strateji sənədinə adekvatlığının qiymətləndirilməsidir. Bu baxımdan büdcə proqnozlarındakı göstəricilərin Strategiyanın hədəflərinə uyğunluğu qiymətləndirilib”.

# Aİ-95 markalı benzinin qiyməti tənzimlənəcək

“Azərbaycanda Aİ-95 markalı benzinin qiymətinin tənzimlənən qiymətlərə daxil edilməsi nəzərdə tutulur”.
Trend xəbər verir ki, bunu Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclasında “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” qanuna təklif edilən dəyişikliyin müzakirəsində Energetika





Nazirliyinin İqtisadiyyat şöbəsinin müdiri Rauf Qurbanov bildirib.
O qeyd edib ki, yaxınlarda Nazirlər Kabineti tərəfindən Aİ-95-in bu siyahıya salınacağı gözlənilir.
**“Aİ-98 markalı benzin isə bizdə istehsal edilmir. Ona görə onun qiyməti tənzimlənmir”**, - deyə o əlavə edib.

# Əməkhaqlarının, sosial ödənişlərin artırılması ilə bağlı hökumətə tapşırıq verilib



Prezidentin hökumətin qarşısında qoyduğu məsələ əməkhaqlarının artırılması ilə bağlıdır.
Trend xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsində maliyyə naziri Samir Şərifov deyib.
*“Əməkhaqlarının, sosial ödənişlərin artırılması ilə bağlı hökumətə tapşırıq verilib”*, - o bildirib.
Onun sözlərinə görə, bu, büdcə layihəsində öz əksini tapıb.

# Güzəştli ipoteka kreditləri alanların siyahısı genişləndirilə bilərmi?

“Güzəştli ipoteka kreditlərini alanların siyahısını genişləndirsək, onda bu güzəşti itirəcəyik”.
Bunu Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Regional məsələlər komitələrinin birgə keçirilən iclasında maliyyə naziri Samir Şərifov deyib.
Nazir bildirib ki, gələn il dövlət büdcəsində də İpoteka Fonduna dövlət pul ayıracaq:
“Güzəştli krediti 4%-lə verirlər. AMB-nin faiz dərəcəsi 7,5%-dir. Ümumiyyətlə, burada uçot faiz dərəcəsi ilə güzəştli ipoteka arasında da müəyyən əlaqə olmalıdır. Pulun müəyyən dəyəri var. Dövlətin gəlirləri müəyyən mənbələrdən təmin olunur. Biz gəlirlərimizin artırılması istiqamətində çalışmalıyıq. Bu vacib vəzifədir. İqlim dəyişikliyi ilə bağlı son vəziyyət araşdırılarkən müşahidə edilib ki, dekarbonlaşma meyilləri güclənməkdədir. Bizim neft-qaz sektorundan olan gəlirlərimiz azalır. Gələn il bu sektordan olan gəlirlər cari illə müqayisədə 750 milyon manat azalacaq.
Növbəti ilin büdcəsində neftin bir barelinin qiyməti builkindən az götürülür. Bu da gəlirlərə təsir edir. İkincisi isə yataqların tükənməsi ilə bağlıdır. Neft şirkətinin ödədiyi vergilər gələn il 120 milyon manat azalır. Müsbət hal isə odur ki, qeyri-neft sektorundan daha çox gəlir əldə etməyə nail olacağıq”.

# “Biz daha geniş miqyasda davamlı tullantıların idarə edilməsini genişləndirməliyik”

Bu barədə COP29-un prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev ”İqlim fəaliyyəti üçün üzvi tullantılardan metanın azaldılması üzrə yüksək səviyyəli tədbir”də çıxışı zamanı deyib.
O qeyd edib ki, metan güclü istixana qazıdır və tullantı sektoru onun böyüyən əsas mənbəyidir.
*“Tullantı sektoru transformasiya və dəyişiklik üçün unikal fürsət təqdim edir. Bugünkü görüş bizim üçün güclü öhdəlikləri, yenilikçi siyasətləri və praktik həlləri bölüşmək üçün şansıdır.*
*Gəlin bu dialoqu tullantı emissiyalarını azaldan, sağlamlığı qoruyan və davamlı inkişafı dəstəkləyən konkret addımlara çevirək”*,- deyə o bildirib.

# Saxta sənəd və lisenziyalarla istehlakçılara yalan məlumatlar verilir

Azərbaycan Mərkəzi Bankının (AMB) apardığı müşahidələrə və daxil olan müraciətlərə əsasən qurumun rəhbər şəxslərinin adından hazırlanmış saxta sənəd və lisenziyalardan istifadə edilməklə maliyyə xidmətləri istehlakçılarına həqiqətə uyğun olmayan məlumatların verilməsi halları var. Bu barədə AMB-nin açıqlamasında qeyd edilib. ***“Maliyyə xidmətlərinin göstərilməsi üçün təqdim olunmuş lisenziyalara dair məlumatlar AMB-nin internet səhifəsində (www.cbar.az) bazar iştirakçıları bölməsinin aidiyyəti üzrə yarımbölməsində əks olunub və davamlı olaraq yenilənir. Bu kimi hallarla rastlaşdıqda səhifəmizdən əsas istinad və məlumat mənbəyi kimi istifadə edilməsi tövsiyə olunur. Əlavə suallarla bağlı Qaynar xəttə (966) müraciət oluna bilər”***, - məlumatda vurğulanıb.

# 10 ayda əsas kapitala 14391,1 milyon manat investisiya yönəldilib



Bu ilin yanvar-oktyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 14391,1 milyon manat və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz az investisiya yönəldilib.
Trend Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 9,1 faiz, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 2,0 faiz azalıb.
Məlumata görə, ümumi sərmayənin 7308,6 milyon manatı və ya 50,8 faizi məhsul istehsalı sahələrinin, 5162,4 milyon manatı (35,9 faizi) xidmət sahələrinin, 1920,1 milyon manatı (13,3 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşüb. Ümumi sərmayənin 57,6 faizi dövlət, 42,4 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulub. Sərmayə qoyuluşunun 72,3 faizi tikinti-quraşdırma işlərinə sərf edilib. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş investisiyanın dəyəri ümumi sərmayənin 83,0 faizini təşkil edib. 2024-cü ilin yanvar-oktyabr aylarında əsas kapitala yönəldilmiş ümumi investisiyanın 37,6 faizi sənaye, 25,2 faizi tikinti, 24,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,2 faizi informasiya və rabitə, 1,9 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5 faizi maliyyə və sığorta, 1,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, hər biri 0,8 faizi olmaqla dövlət idarəetməsi və müdafiə, təhsil, 0,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, hər biri 0,5 faiz olmaqla, inzibati və yardımçı xidmətlərin göstərilməsi, peşə, elmi və texniki fəaliyyət, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 0,4 faizi digər sahələrdə xidmətlərin göstərilməsi, 0,2 faizi istirahət, əyləncə və incəsənət sahələrinə sərf edilib.

# Лукашенко на саммите COP29 в Баку озвучил предложения для глобальных действий по борьбе с изменением климата



Президент Беларуси Александр Лукашенко на саммите COP29 в Баку озвучил предложения для глобальных действий по борьбе с изменением климата.
Глава государства отметил, что «эти и другие направления требуют консолидации международных усилий».
«Не на словах, а на деле. Пора от слов перейти к делу. И тот, кто должен платить, должен платить, а не отсиживаться у себя в кабинетах», - подчеркнул белорусский лидер.
Президент констатировал, что климат изменился и это уже данность.
«Поэтому первостепенная задача – перенастроить национальные экономики, прежде всего сельское хозяйство, с учетом изменившихся условий, адаптировать его к новым условиям», - заявил он.
Александр Лукашенко подчеркнул, что Беларусь активно занимается данной темой и готова делиться опытом.
Глава государства призвал помочь развивающимся странам получить равный доступ к зеленым технологиям без ущерба для их национальных интересов: «Сделать так, чтобы они в результате этой помощи не попали в кабалу.
Нужно отменить все, что мешает международной торговле технологиями, обмену инновациями и наилучшими практиками».
По словам Александра Лукашенко, мир уже столкнулся с ситуацией, когда новая продукция, позиционируемая как более экологически безопасная альтернатива, наносит не меньший вред.
«Объективно нужны новые подходы к комплексной оценке потенциального воздействия инноваций на окружающую среду на протяжении всего жизненного цикла данной продукции», - сказал он.

# 100 строк к 50-летию нашего Бакуви



***Как заметил один философ, о светлом будущем заботятся политики, о светлом прошлом - историки, а о светлом настоящем - журналисты. В этих словах немного пафоса, ведь и светлое настоящее нередко отбрасывает уродливые и мрачные тени. Но кто-то ведь должен анализировать их природу и особенности, не так ли?***
Конечно, есть и другой путь – писать то, что нравится всем. Но с этой минуты вы работаете уже не в журналистике, а в пропагандистском аппарате. А этот текст посвящен журналистам. Точнее, одному из них, уважаемому товарищу и коллеге Адему Исмаилу Бакуви, которому сегодня исполняется 50 лет - наследнику древнего ширванского суффитского ордена Бакуви.
Принято считать, что в журналистику приходят в молодом возрасте, чтобы, заявив о себе в качестве публициста или репортера, продолжить реализовывать себя в политике, общественной деятельности или в науке. Адем Исмаил Бакуви поступил ровно наоборот и влился в наш коллектив будучи самодостаточной личностью, известным исследователем, общественным деятелем и ярким публицистом, свободно владеющим несколькими языками. Окончив в 1996 году факультет политологии бакинского Института социального управления и политологии (ныне Академия государственного управления при президенте Азербайджанской Республики), в 2002-м - аспирантуру Института философии и права АН Азербайджанской Республики, в 2007-м - юридический факультет Бакинского государственного университета, а в 2013 году - аспирантуру Международной кадровой академии, Адем Исмаил Бакуви получил степень доктора философии, работал экспертом в различных международных организациях, участвовал в качестве модератора в десятках международных конференциях и симпозиумах, посвященных международным отношениям, истории, философии и проблемам мультикультурализма.
Наш коллега является автором пяти книг и множества рефератов, монографий и статей, изданных за рубежом и удостоенных нескольких престижных международных наград, членом Союза писателей и Союза журналистов Азербайджанской Республики, заместителем председателя Литературного фонда Азербайджана.
Все эти годы Адем Бакуви сочетал свою деятельность философа, правоведа и политолога с активной общественной и преподавательской работой, возглавляя благотворительное общество «Ширван», руководя Международным фондом «Хазар» и коалицией по мониторингу выборов «Мой голос» на внеочередных президентских выборах и выборах в Милли Меджлис, а также преподавая в Академии управления при президенте философию, политологию и мультикультурализм.
***Поздравляем юбиляра, желаем крепкого здоровья, неиссякаемой энергии и счастья!***

**Источник: haqqin.az**

# Лукашенко и Алиев провели в Баку переговоры



Президент Беларуси Александр Лукашенко в Баку провел переговоры с Президентом Азербайджана Ильхамом Алиевым, сообщает БЕЛТА.
Глава государства прибыл с рабочим визитом в столицу Азербайджана для участия во Всемирном саммите по борьбе с изменением климата.
Президенты отметили интенсивность встреч в последнее время. В первую очередь стоит напомнить о государственном визите Александра Лукашенко в Азербайджан в мае текущего года. Тогда главы государств провели продуктивные переговоры с акцентом на торгово-экономическом сотрудничестве.
Были выработаны 12 направлений, которые как сразу, так и в перспективе призваны продвинуть взаимоотношения двух стран на более высокий уровень.
«О многом договорились. Я думаю, у нас есть все необходимое для того, чтобы двигаться по этому пути. Как раз накануне мы рассмотрели все вопросы, которые с вами поднимали. Они для нас очень актуальны. Думаю, если наши министерства и посол будут шевелиться, то мы очень многое можем сделать на пользу и Беларуси, и Азербайджана», - сказал на встрече в Баку Александр Лукашенко.
Президенты Беларуси и Азербайджана этой осенью также имели возможность обсудить те или иные важные вопросы в Москве и Казани, где они принимали участие в саммитах СНГ и БРИКС. Посол Беларуси в Азербайджане Андрей Равков рассказал журналистам, что за время после майского госвизита шла активная проработка по всем достигнутым договоренностям: «Где-то подвижки очень серьезные, где-то в стадии проработки. Тем не менее по всем 12 направлениям есть хорошее движение и будет хороший результат», - уверен он.
Теперь же главы государств имеют возможность сверить часы по вопросам развития сотрудничества.
Андрей Равков также отметил, что ранее была поставлена цель довести объем двусторонней торговли в течение ближайших двух лет до $1 млрд. Ожидается, что в торговле товарами и услугами стороны уже по итогам текущего года уверенно преодолеют планку в $500 млн, что значительно выше объемов прошлого года.

# Успех COP29 сыграет решающую роль в глобальных климатических мерах

Генеральный секретарь ООН Антониу Гутерриш, выступая на саммите лидеров G20 в Рио-де-Жанейро, подчеркнул важность успешного проведения COP29.
Как сообщает Trend, в своем выступлении он сказал, что успех проходящей в Баку COP29 сыграет решающую роль в глобальных климатических мерах.
«Мы должны добиться успеха, укрепить доверие и способствовать разработке высоко амбициозных национальных климатических планов на следующий год.
В противном случае амбиции по разработке новых национальных планов действий по борьбе с изменением климата уменьшатся, и



мы станем еще ближе к безвозвратному изменению климата», - сказал он.
А.Гутерриш отметил, что результаты COP29 должны заложить прочную основу для успешного проведения COP в Бразилии. Он особо подчеркнул важность финансирования для удовлетворения потребностей развивающихся стран.
Генеральный секретарь заявил, что глобальный климатический кризис достиг критической точки.
«Если мы не ограничим глобальное повышение температуры 1,5 градуса Цельсия, мы столкнемся с катастрофическими последствиями», - сказал он.
Он призвал все страны принять более амбициозные меры в борьбе с изменением климата, напомнив, что страны G20 несут ответственность за 80 процентов глобальных выбросов.
В конце А.Гутерриш подчеркнул важность ускорения перехода к возобновляемым источникам энергии, диверсификации экономики и обеспечения справедливого перехода.

# Обсуждено сотрудничество Азербайджана и России в решении экологических проблем на Каспии

В рамках COP29 в Баку состоялась двусторонняя встреча между председателем Государственного агентства водных ресурсов Азербайджана Зауром Микаиловым и председателем Агентства водных ресурсов Российской Федерации Дмитрием Кирилловым.
Как сообщает во вторник Trend, на встрече обсуждались последствия глобальных климатических



изменений, важность партнерства в управлении трансграничными водными ресурсами, а также вопросы сотрудничества в решении экологических проблем в Каспийском море.
Стороны подчеркнули важность обмена знаниями для укрепления регионального сотрудничества, разработки инновационных решений, обеспечения устойчивого использования и сохранения совместных водных ресурсов.
Данная встреча в очередной раз демонстрирует приверженность обеих стран развитию устойчивого управления водными ресурсами.

# Böyük Britaniyada inflyasiya sürətlənib



Böyük Britaniyada istehlak qiymətləri oktyabr ayında illik müqayisədə 2.3% artıb. Bu barədə ölkənin Milli Statistika İdarəsinin (ONS) hesabatında deyilir.

Belə ki, inflyasiya sentyabrdakı 1.7%-lə müqayisədə sürətlənib.

"Trading Economics"ə görə, analitiklər keçən ay orta hesabla qiymətlərin 2.2% artacağını gözləyirdilər.

# Rusiya Avropa İttifaqına taxıl tədarükünü dayandırıb

Rusiya Avropa İttifaqına taxıl tədarükünü demək olar ki, dayandırıb. Tədarükün azalması iyul ayında rüsumların artırılması ilə əlaqəli olub. Belə ki, iyulda aylıq ifadədə ixrac 4 dəfə azalaraq, avqustda 3.7 milyon avroya düşüb.



İyulun 1-dən Aİ Rusiya və Belarusdan taxıl, yağlı bitkilər və onların məhsullarının idxalına əlavə rüsumlar tətbiq edib. Rüsumun məbləği Aİ-yə idxal olunan məhsulun 1 tonu üçün 95 avroya çatır ki, bu da Avropa bazarında buğdanın dəyərinin təxminən 50%-nə bərabərdir.

Rusiya taxılının iyul-noyabr aylarında xaricə ixracının yüksək templəri və məhsuldarlığın azalması 2025-ci ildə ixrac kvotasının üç dəfə azalmasına səbəb ola bilər. Mütəxəssislərin fikrincə, dünya bazarında belə bir tədbir buğdanın qiymətinin artmasına gətirib çıxaracaq.

# Nestle xərcləri azaldacaq: Hədəf 2,83 milyard dollar qənaətdir

Nestle 2027-ci ilə qədər xərclərə 2,5 milyard İsveçrə frankı (təxminən 2,83 milyard dollar) qənaət etməyi planlaşdırır. Şirkət 2025-ci ilə qədər ümumi satışlarının 9 faizini reklam və marketinq investisiyalarına ayırmağı hədəfləyir. Digər tərəfdən, şirkət 1 yanvar 2025-ci il tarixindən etibarən su və yüksək keyfiyyətli içki biznesini müstəqil qlobal bölməyə çevirəcək.



Nestle şirkətinin yeni baş direktoru Laurent Freixe rəhbərliyi altında böyümə strategiyalarını gücləndirəcək.

Marja.az xəbər verir ki, Şirkət reklam və marketinq xərclərini artırarkən, ümumi xərcləri azaldacaq. O, həmçinin su və yüksək keyfiyyətli içki biznesini müstəqil qlobal bölməyə çevirəcək. Beləliklə, şirkət böyüməni sürətləndirməyi hədəfləyir.

İsveçrənin qida nəhəngi 2027-ci ilə qədər xərclərə 2,5 milyard İsveçrə frankı (təxminən 2,83 milyard dollar) qənaət etməyi planlaşdırır. Bundan əlavə, cari qənaətlərin 1,2 milyard İsveçrə frankı olacağı gözlənilir.

Normal əməliyyat mühitində Nestle ortamüddətli perspektivdə artımın 4 faizdən yuxarı olacağını və əsas ticarət əməliyyat marjasının 17 faizə çatacağını proqnozlaşdırır.

Bundan əlavə, Nestle 2025-ci il yanvarın 1-dən etibarən su və yüksək keyfiyyətli içki biznesini müstəqil qlobal bölməyə çevirəcək.

# BAEA İranın zənginləşdirilmiş uran ehtiyatının 60% artırdığını qeyd edib



İran nüvə silahı yaratmaq üçün lazım olan səviyyəyə qədər zənginləşdirilmiş uran ehtiyatını daha da artırıb,

Bu barədə "AP" agentliyi Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) rüblük məxfi hesabatına istinadən xəbər verib.

Məlumata əsasən, 2024-cü ilin avqustunda əvvəlki hesabatdan bəri İran oktyabrın 26-na əlavə 17,6 kq 60% zənginləşdirilmiş uran hasil edib. Bu materialların ümumi həcmi hazırda 182,3 kq təşkil edir. Bildirilib ki, belə uran asanlıqla 90%-ə qədər zənginləşdirilə və nüvə silahının tərkib hissələrindən birinə çevrilə bilər.

Ümumi uran ehtiyatları eyni dövrdə 852,6 kq artaraq 6604 kq-a çatıb.

BAEA-nın hesablamalarına görə, 42 kq 60% zənginləşmiş urandan zənginləşmə səviyyəsini 90%-ə çatdırdıqdan sonra nüvə yükü yaratmaq mümkündür.

# "Bayraktar TB3" dünya aviasiya tarixində ilkə imza atıb

Türkiyənin "Baykar" şirkəti tərəfindən yerli imkanlarla istehsal olunan "Bayraktar TB3" yeni nəsil silahlı pilotsuz uçuş aparatı qardaş ölkənin digər milli istehsalı olan "TCG Anadolu" hərbi amfibiya gəmisi üzərindən ilk uçuş testini uğurla başa vurub. Bununla da "Bayraktar TB3" dünya aviasiya tarixində PUA olaraq ilk dəfə qısa uçuş-enmə zolağına malik dəniz vasitəsində qalxış və enmə manevrini uğurla həyata keçirə bilib.

"Bayraktar TB3" indiyə qədər həyata keçirilən test uçuşlarında ümumilikdə 700 saatdan çox havada qalıb. Türkiyənin milli SİHA-sı ötən il dekabrın 20-də həyata keçirilən uzun uçuş testində isə yerə enmədən 32 saat havada qalaraq 5 700 kilometr məsafə qət edib.

"Bayraktar TB3" bu ilin mart ayında Türkiyənin texnologiya nəhənglərindən "Aselsan" tərəfindən yerli imkanlarla təkmilləşdirilən, dünyadakı müvafiq sistemlərə nisbətən ən yüksək performansa sahib "ASELFLIR-500" Elektro-Optik Kəşfiyyat, Nəzarət və Hədəfləmə Sistemi ilə təchiz edilib.

# Mərkəzi Gömrük Hospitalının Pediatriya və Neonatologiya şöbəsində həftənin 7 günü 24 saat fasiləsiz neonatoloji və pediatrik tibbi xidmətlər göstərilir




Mərkəzi Gömrük Hospitalının Pediatriya və Neonatologiya şöbəsində yüksəkixtisaslı tibb personalı tərəfindən yenidoğulmuş körpələrin və balaca pasiyentlərin sağlam və gümrah böyüməsi üçün həftənin 7 günü 24 saat fasiləsiz neonatoloji və pediatrik tibbi xidmətlər göstərilir.

Ən müasir avadanlıqlarla təchiz edilmiş Mərkəzi Gömrük Hospitalında yeni doğulan körpələrə beynəlxalq standartlara və protokollara cavab verən ilkin neonatoloji xidmətlərdən başlayaraq, reanimasiya, intensiv terapiya, təcili yardım, ürək-damar əməliyyatları, travmatoloji əməliyyatlar, böyrək və qaraciyər transplantasiyası, uşaq cərrahiyyəsi və terapiyaya qədər geniş spektrli xidmətlər göstərilir.

Balaca pasiyentlərə həkim-pediatr müayinəsi ilə bərabər, otolarinqoloq, oftalmoloq, travmatoloq, kardioloq, qastroenteroloq, uroloq, uşaq cərrahı tərəfindən də müayinələr həyata keçirilir. Hospitalda ambulator və stasionar şəraitdə balaca pasiyentlərə göstərilən tibbi xidmətlərlə yanaşı, valideynlərə uşağın sağlamlığı və inkişafı barədə vacib məlumatlar verilir ki, bu da kompleks şəkildə tez biz zamanda uşağın sağalması və gələcək inkişafında mühüm rol oynayır.

Gənc analar yüksəkixtisaslı kadrların köməyi ilə uşağa qulluq vərdişlərinə yiyələnir və düzgün ana südü ilə qidalanma prinsiplərinə yiyələnirlər. Əgər ana nədənsə uşağı ana südü ilə qidalandıra bilmirsə, körpənin fərdi xüsusiyyətlərini nəzərə alaraq, hər bir körpə üçün ayrıca seçilmiş süni qarışıqlardan istifadə edərək alternativ qidalanma üsullarından istifadə edilir.

Bu şöbədə valideynlər körpənin vəziyyəti, hər bir uşağın uyğunlaşma dövrünün xüsusiyyətləri, diaqnostik nəticələr və müalicə taktikası haqqında tam məlumat alırlar.

Vaxtından əvvəl doğulmuş yenidoğulmuşlara (hamiləlik müddəti 30-37 həftə) xüsusi diqqət verilir. Yenidoğulmuşların bu qrupu üçün xüsusi diaqnostik və terapevtik proqramlar istifadə olunur.

Hospitalın Pediatriya və Neonatologiya şöbəsində uşaqların fiziki inkişafının kontrol təqibi və beynəlxalq standartlara uyğun planlı və təcili peyvənd proqramları, ilkin reanimasion tədbirlər, intubasiya, süni tənəffüs aparatı vasitəsi ilə ağ ciyərlərin ventilyasiyası, bütün növ ultrasəs müayinələri, rentgenoqrafiya və s. xidmətlər həyata keçirilir.

**Dilarə Zamanova,
Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "Bakcell" "Ən Uğurlu Rebrendinq" mükafatına layiq görüldü




Qısa zamanda abunəçilərə altı innovativ məhsul təqdim edən "Bakcell", reklam və marketinq dünyasının mühüm beynəlxalq müsabiqələrindən biri olan "Felis" tərəfindən "Ən Uğurlu Rebrendinq" mükafatına layiq görülüb. Qeyd edək ki, "Bakcell" rebrendinq zamanı "Meta" və "Alphabet" kimi dünyanın aparıcı brendləri ilə işləyən İspaniyanın qlobal konsaltinq şirkəti - "Saffron"la əməkdaşlıq edib.

"Bakcell"in son aylarda abunəçilərə təqdim etdiyi innovativ məhsullar arasında "Tarif Məsləhətçisi", "VoWifi","Star Portfolio", "Birinci Tarif", "Bakcell Kart" və "Fiber1" yer alır. Şirkət, həmçinin icra etdiyi sosial layihələri milli qürur fəlsəfəsi altında həyata keçirməklə sektorda lider mövqeyini daha da gücləndirir.

Qeyd edək ki, "Felis Mükafatları" 19 ildir ki, Türkiyədə reklam və marketinq sektorunda innovativ yanaşma və kreativlik baxımından fərqlənən layihələri dəyərləndirir. 2022-ci ildən etibarən bu müsabiqə Azərbaycan üzrə də təşkil edilir.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası
**ELDAR QASIMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"İqtisadiyyat" qəzetinin kollektivi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası
**ELDAR QASIMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500